

# Azərbaycan İlahiyyat İnstitutu

# Bülleten

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 2
iyul-dekabr
2020



səh.25

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜ İLƏ BAĞLI VEBİNAR**



səh.16

**AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNDA AKADEMİK VASİM MƏMMƏDƏLİYEVİN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ RESPUBLİKA ELMİ KONFRANSI**



**Azərbaycan İlahiyyat İnstitutunun rektoru xarici ölkə universitetlərinə Müraciət ünvanlayıb**

səh.24



**15 SENTYABR – BİLİK GÜNÜ MÜNASİBƏTİLƏ ONLAYN İCLAS**

səh.7

**İslamşünaslıq ixtisasına qəbul olunmaq istəyən abituriyentlər üçün müsahibə mərhələsi**

səh.30



səh.14

**İnstitutda dərslərin məsafədən təşkili uğurla davam edir**

səh.24



**"Dayanıqlılıq naminə ictimai fəaliyyət" layihəsi üzrə tərəfdaşların onlayn görüşü**

səh.14

**İnstitutda Birdəfəlik dissertasiya şurası yaradılıb**



**İlahiyyat İnstitutunda Beynəlxalq Ərəb Dili Gününə həsr edilmiş elmi konfrans**

səh.28

**"TƏRCÜMƏ FƏALİYYƏTİ: NƏZƏRİ ƏSASLAR, MÖVCUD VƏZİYYƏT VƏ PROBLEMLƏR" MÖVZUSUNDA VEBİNAR**

səh.22



səh.29

**Qış imtahan sessiyasının keçirilmə qaydaları açıqlanıb**

# Azərbaycan İlahiyyat İnstitutunun rəhbərliyi yanında İctimai Nəzarət Şurasının onlayn iclası

Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) rəhbərliyi yanında İctimai Nəzarət Şurasının 8 iyul 2020-ci il tarixdə onlayn iclası keçirilib.

"ZOOM" proqramı vasitəsilə keçirilən onlayn iclasda Şura üzvləri iştirak ediblər.

Onlayn iclasda çıxış edən Aİİ-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov tədbir iştirakçılarını salamladıqdan sonra bildirib ki, Azərbaycan Respublikası ərazisində koronavirus (COVID-19) xəstəliyinin yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi




təxirə salınıb. O qeyd edib ki, Aİİ-də cari tədris prosesi ilkin olaraq videodərslər formasında, daha sonra isə Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq onlayn şəkildə "Microsoft Teams" platforması üzərindən keçirilib. Rektor "Microsoft Teams" platformasının üstünlüklərindən danışaraq qeyd edib ki, məsafədən dərslərə qoşula bilməyən tələbələrin daha sonra proqramdan istifadə etmək imkanları olub.

Aİİ rəhbəri imtahanların keçirilmə qaydası ilə bağlı Elmi Şuranın qərarlarını açıqlayaraq, yay imtahan sessiyası ərzində tələbələrin imtahanlarda iştirak, müvəffəqiyyət və keyfiyyət göstəricilərini diqqətə çatdırıb.

Yay mövsümünün pandemiya və xüsusi karantin dövrünə təsadüf etdiyini nəzərə çatdıran rektor tələbələr üçün bu müddətdə motivasiya xarakterli təlimlərin, yarış və müsabiqələrin, həmçinin onlayn kursların təşkilinin nəzərdə tutulduğunu vurğulayıb.

Nəzarət Şurasının üzvü – təhsil üzrə ekspert, professor Şahlar Əsgərov Aİİ-ni çoxəsrlik İslam mədəniyyətinin ənənələrini davam etdirən elm ocağı adlandıraraq, təhsil, təlim-tərbiyə prosesinə dair öz dəyərli tövsiyələrini verib.

Təhsil üzrə ekspert Nadir İsrafilov görüş iştirakçılarını salamlayaraq, pandemiya dövründə onlayn dərslərin təhsilimizə qazandırdığı təcrübədən geniş bəhs edib.

Millət vəkili Arzu Nağıyev çıxışında Aİİ-nin bir sıra dünya universitetlərinin təcrübəsindən yararlandığını vurğulayıb. Qərb universitetlərinin tətbiq etdiyi distant təhsil nümunələrini diqqətə çatdıraraq, ali təhsil ocağının qabaqcıl təcrübələrdən istifadəsini yüksək qiymətləndirib.

"İki sahil" qəzetinin Baş redaktoru Vüqar Rəhimzadə Aİİ-nin qısa zaman ərzində ölkənin ictimai-siyasi həyatında nüfuz qazandığını vurğulayaraq, əməkdaşlarının məqalələrinin humanitar sahədə dünyanın nüfuzlu jurnallarında dərc olunmasını yüksək qiymətləndirib.

Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları Birgə Qrupun üzvü Əliməmməd Nuriyev isə Aİİ-nin yaradılmasının və fəaliyyətinin cəmiyyət üçün vacibliyini vurğulayaraq, İnstitutun din sahəsində mütəxəssis yetişdirməsinin əhəmiyyətini diqqətə çatdırıb.

İctimai Televiziya və Radio Yayımları Şirkətinin İctimai-Siyasi Proqramlar Departamentinin direktoru Anar Yusifoğlu Aİİ-nin fəaliyyətini yüksək qiymətləndirib və cəmiyyət üçün dəyərli mütəxəssis yetişdirən bu ali təhsil ocağına uğurlar arzu edib.

***Modern.az*** saytının rəhbəri Elşad Eyvazlı və "525-ci qəzet"in müxbiri Sevinc Qarayeva iclas iştirakçılarının dəyərli fikirlərinə qoşularaq, Aİİ-yə gələcək fəaliyyətində müvəffəqiyyətlər diləyib.

Məlumat üçün bildirək ki, İctimai Nəzarət Şurasının əsas məqsədi Aİİ-nin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, İnstitut ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı əlaqələrin təşkili, aşkarlığın və şəffaflığın təmin olunması, əməkdaşların və təhsil alanların hüquqlarının müdafiəsi və fəaliyyətinin təkmilləşdirilməsi üçün təkliflərin verilməsindən ibarətdir.

# AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNDA YAY İMTAHAN SESSİYASI SONA ÇATIB

Azərbaycan İlahiyyat İnstitutunda (AİÎ) 2019-2020-ci tədris ilinin bakalavriat və magistratura səviyyələri üzrə yaz semestrinin yay imtahan sessiyası 10 iyul 2020-ci il tarixdə sona çatıb. Beş həftə davam edən sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq, "Microsoft Teams" platforması üzərindən onlayn formatda şifahi formada keçirilib.

Xüsusi karantin rejiminin tələblərini və məsafədən tədrisin reallıqlarını nəzərə alaraq, imtahan sessiyasında tələbələrin bilik və bacarıqlarını göstərmələri üçün lazımi şərait yaradılıb.

Azərbaycan Respublikası ərazisində koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin təxirə salındığını nəzərə alaraq, AİÎ-də cari tədris prosesi ilkin olaraq videodərslər formasında, daha sonra isə Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq onlayn şəkildə "Microsoft Teams" platforması üzərindən keçirilib.

Tələbələrin imtahanlarda daha fəal iştirak etmələri üçün Elmi Şuranın qərarına əsasən bir sıra güzəştlər tətbiq olunub. Belə ki, cari ilin yaz semestri üzrə təhsilalanların biliyinin qiymətləndirilməsi zamanı onlayn dərslərdə iştirak



edən tələbə və magistrantların dərslərdəki fəallığı nəzərə alınaraq, əldə etdikləri nəticələr əsas götürülüb. Onlayn dərslərdə iştirak etməyən tələbələrin yaz semestri üzrə qiymətləndirilməsi onların yay imtahan sessiyasında topladıqları balların 2-yə vurulması ilə həyata keçirilib.

İmtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, sualların tərtibi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunması, sessiyanın gedişi zamanı imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə ali təhsil müəssisəsində Qərargah və onun nəzdində Apelyasiya Komissiyası yaradılıb.

İmtahan sessiyasının gedişatı dekanlıq, tədris şöbəsi və aidiyyatı kafedralar tərəfindən "Microsoft Teams" platforması üzərindən izlənilib.

Tələbələrin imtahanlarda müvəffəqiyyət göstəricisi 95, keyfiyyət göstəriciləri isə 40 faizdən yüksək olub.

Qeyd edək ki, imtahan sessiyası müddətində əldə etdikləri nəticələrə (ÜOMG-yə) əsasən təhsilalanlara tələbə təqaüdü ilə yanaşı, AİÎ-də təsis olunmuş Heydər Əliyev adına təqaüd və Qafqaz Müsəlmanları İdarəsi tərəfindən təsis edilmiş Şeyxülislam adına təqaüd veriləcək.

# AİÎ-də ƏRƏBCƏ KLASSİK DİNİ MƏTNLƏRİ OXUMA KURSU FƏALİYYƏTƏ BAŞLAYIB

Azərbaycan İlahiyyat İnstitutunda (AİÎ) İslam əqaidi üzrə ərəbcə klassik dini mətnləri oxuma kursu fəaliyyətə başlayıb. Bu məqsədlə 28 iyul 2020-ci il tarixdə AİÎ-nin rektoru, kursun dinləyiciləri və müəllimlərin iştirakı ilə onlayn görüş keçirilib.

AİÎ-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov iştirakçıları salamladıqdan sonra, yay mövsümünün pandemiya və xüsusi karantin dövrünə təsadüf etdiyini nəzərə çatdıraraq, tələbələr üçün bu müddətdə motivasiya xarakterli təlimlərin, yarış və müsabiqələrin, həmçinin ixtisayönümlü onlayn kursların təşkilinin nəzərdə tutulduğunu vurğulayıb.

Rektor tələbələrə bu gündən etibarən başlayan kurslardan yararlanmağı, öz bilik və bacarıqlarını inkişaf etdirmələrini, daim üzərilərində işləmələrini tövsiyə edib.

Məlumat üçün bildirək ki, kurslar həftədə 2 dəfə olmaqla "Microsoft Teams" proqramı üzərindən onlayn formada, AİÎ-nin müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səmədov və AMEA ak. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun elmi işçisi, AİÎ-nin əməkdaşı Hilal Ağamoğlanov tərəfindən keçiriləcək. Kurslar yalnız AİÎ tələbələri üçün və ödənişsiz həyata keçirilir.

Qeyd edək ki, ali təhsil müəssisəsində tələbələrin şəxsi keyfiyyətlərinin, dil biliklərinin yüksək olmalarına, dini və dünyəvi biliklərə dərindən yiyələnmələrinə xüsusi önəm verilir və təhsilalanların bilikli, savadlı, zəngin dünyagörüşlü yetişmələri üçün AİÎ-də müxtəlif layihələr həyata keçirilir.

# Azərbaycan Milli Mətbuatının yaranmasından 145 il ötür

Azərbaycan Milli Mətbuatının yaranmasından 145 il ötür.

22 iyul Azərbaycanda Milli Mətbuat Günü kimi qeyd olunur. Görkəmli ziyalı və maarrifçi-publisist Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə Azərbaycan dilində nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan Milli Mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır. Azərbaycanda maarifçilik hərəkatının formalaşmasına töhfələr vermiş "Əkinçi"nin cəmi 56 sayı işıq üzü görsə də, əsas məqsədi fanatizmi, cəhaləti aradan qaldırmaq, xalqı elmə, maarifə, tərəqqiyə səsləmək, onun elmi-mədəni səviyyəsini yüksəltmək olub.

Müxtəlif tənəzzül və intibah dövrləri keçən Azərbaycan Milli Mətbuatı daim cəmiyyətin proseslərə baxışını əks etdirməyi bacarmışdır. 1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən və cəmiyyətin bütün sahələrini əhatə edən köklü islahatlar nəticəsində ölkədə senzura, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılmış, medianın fəaliyyətini tənzimləyən mütərəqqi qanunvericilik bazası yaradılmış, onun problemlərinin həlli, iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğunda rolunun yüksəldilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilmişdir.

Hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik fəaliyyət göstərir. İnformasiya texnologiyalarının inkişafı ilə Azərbaycan mətbuatı qlobal məlumat mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşaraq tərəqqi etməkdədir.

Azərbaycan Respublikasının Prezidentii cənab İlham Əliyevin mətbuatın inkişafı, jurnalistlərin rifahı naminə atdığı addımlar, kütləvi informasiya vasitələrinə dəstək, media işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin Milli Mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi mətbuata qayğının bariz nümunəsidir.

Azərbaycan İlahiyyat İnstitutu fəaliyyətə başladığı vaxtdan etibarən, kütləvi informasiya vasitələri ilə əlaqələrini inkişaf etdirir. Vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri, o cümlədən dini dəyərlərin təbliğində media nümayəndələri vəzifələrinin öhdəsindən layiqincə gəlirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Milli Mətbuatının 145 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncamdan irəli gələrək, Azərbaycan İlahiyyat İnstitutu ali təhsil müəssisəsinin fəaliyyətini obyektiv işıqlandıran, fəallığı ilə seçilən mətbuat nümayəndələrini təbrik edib. Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində tətbiq edilən xüsusi karantin rejiminin tələbləri və Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri nəzərə alınmaqla media nümayəndələri təltif olunublar.

# "TARİXİ VƏ DİNİ BAXIMDAN İSLAMDA QURBAN İBADƏTİ" MÖVZUSUNDA VEBİNAR

Azərbaycan İlahiyyat İnstitutunda 29 iyul 2020-ci il tarixdə "Tarixi və dini baxımdan İslamda Qurban ibadəti" mövzusunda vebinar keçirilib.

"Microsoft Teams" platforması üzərindən təşkil olunan vebinarda Aİİ-nin rəhbər heyəti, müəllimləri və tələbələr iştirak ediblər.

Aİİ-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov vebinar iştirakçılarını salamladıqdan sonra, qarşıdan gələn müqəddəs Qurban bayramı münasibətilə təbriklərini çatdırıb. Rektor son günlər Azərbaycan-Ermənistan sərhədində baş verən hadisələrə toxunaraq, ermənilərin mənfur niyyətlərinin həyata keçmədiyini vurğulayıb. A.Şirinov şəhid olanların xatirəsini yad edib, onlara Allahdan rəhmət diləyib.

Builki Qurban bayramının pandemiya dövrünə təsadüf etdiyini vurğulayan rektor istər qurban kəsimi, istərsə də Bayram namazı və bayramlaşma zamanı xüsusi karantin rejimi qaydalarına və Qafqaz Müsəlmanları İdarəsinin tövsiyələrinə riayət etməyə səsləyib.

Sonra çıxış edən fəlsəfə üzrə fəlsəfə doktoru Ə.Niyazov bayram haqqında ətraflı məlumat verib. Qurban bayramının tarixi əhəmiyyətindən bəhs edən Ə.Niyazov bildirib ki, İslamdan əvvəl də qurbankəsmə mərasimi bütün ilahi dinlərdə mövcud olub.

Ə.Niyazov İslam dininin müxtəlif məktəblərində Qurban hökmləri haqqında təfsilatlı məlumat verərək bildirib ki, bu bayram müsəlmanları birləşdirir, onları gözəl niyyətlər və xeyirxah əməllərə sövq edir.

Vebinar maraqlı müzakirələrlə və suallarla davam edib.

# "Din araşdırmaları" jurnalının növbəti nömrəsi çapdan çıxıb

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) elmi fəaliyyətinin əsas göstəricilərindən biri olan "Din araşdırmaları" jurnalının dördüncü sayı dərc edilib.

Baş redaktoru İnstitutun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov olan "Din araşdırmaları" jurnalının məqsədi ölkəmizdə və dünyada din sahəsində tədqiqat aparan alimlərin məqalələrini elmi ictimaiyyətə təqdim etməkdən ibarətdir. İldə iki dəfə dərc olunan jurnalın yeni sayında 19 məqalə yer alıb. Din sosiologiyası, din psixologiyası, təfsir, kəlam, tarix, fəlsəfə, İslam hüququ, təsəvvüfə dair qələmə alınmış elmi məqalələr öz sahəsinin peşəkar və nüfuzlu tədqiqatçıları tərəfindən təqdim edilmişdir. Jurnalda Azərbaycan, rus, ingilis və türk dillərində məqalələr dərc olunub. Dərginin redaksiya heyətinin üzvləri Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, İran və İsveçrənin ali təhsil müəssisələrində çalışan tanınmış alimlərdir.

Jurnalın nəşr qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi jurnallar qarşısında qoyduğu tələblərə, həmçinin bu sahədəki beynəlxalq standartlara uyğun olaraq hazırlanıb.

Azərbaycan İlahiyyat İnstitutu ali dini təhsil üzrə ixtisaslaşmış müəssisədir. İnstitut din sahəsi də daxil olmaqla, ictimai elmlərin müxtəlif istiqamətlərində monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və məqalələrin nəşrinə üstünlük verir.

Məlumat üçün bildirək ki, akademik nəşrlər ali təhsil müəssisələrinin elmi fəaliyyətinin əsas göstəricilərindən biridir. Gələcəkdə "Din araşdırmaları" jurnalının tanınmış beynəlxalq indekslərə daxil edilməsi nəzərdə tutulur.




Qeyd edək ki, "Din araşdırmaları" jurnalı 2020-ci ildən AAK tərəfindən fəlsəfə və psixologiya üzrə elmi məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilib.

# "TARİXİ VƏ DİNİ BAXIMDAN AŞURA GÜNÜNÜN ƏHƏMİYYƏTİ" MÖVZUSUNDA VEBINAR KEÇİRİLİB

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 28 avqust 2020-ci il tarixdə "Tarixi və dini baxımdan Aşura gününün əhəmiyyəti" mövzusunda vebinar keçirilib.

"Microsoft Teams" platforması üzərindən təşkil olunan vebinarda AİI-nin rəhbər heyəti, müəllimləri və tələbələr iştirak ediblər.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov vebinar iştirakçılarını salamladıqdan sonra, hicri təqvimi ilə Məhərrəm ayının və bu ayın 10-cu gününün – Aşuranın İslam aləmində xüsusi önəmini diqqətə çatdırıb.

Daha sonra Aşuranın pandemiya dövrünə təsadüf etdiyini vurğulayan M.Mürsəlov karantin rejiminin qaydalarına riayət edərək bugünü keçirməyi, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının Məhərrəm ayı və Aşura günü ilə əlaqədar Azərbaycan müsəlmanlarına tövsiyələrinə əməl etməyin vacibliyini nəzərə çatdırıb.

"Tarixi və dini baxımdan Aşura gününün əhəmiyyəti" mövzusunda çıxış edən AİI-nin dosenti, ilahiyyat üzrə fəlsəfə doktoru Aslan Həbibov Kərbəla faciəsinin tarixi haqqında ətraflı məlumat



verib. Aşura gününün tarixi əhəmiyyətindən bəhs edən A.Həbibov bildirib ki, həmin gün İslam aləmində ali dəyərlər uğrunda mübarizənin nümunəsi kimi tarixə düşüb.

Kərbəlada baş verənləri "haqq-batil" mübarizəsinin parlaq təzahürü adlandıran Aslan Həbibov belə qarşıdurmaların bəşər tarixində müxtəlif formalarda təzahür etdiyini, bu münaqişlərdə rollar dəyişsə də, mahiyyətin eyni olaraq qaldığını vurğulayıb.

Məhərrəm ayında Mərkəzi Qan Bankının filiallarında qan verməyin Aşura gününün mahiyyətinə uyğun ən gözəl nümunələrdən olduğunu diqqqətə çatdıran Aslan Həbibov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bu ay ərzində apardığı maarifləndirici tədbirlərin əhəmiyyətini vurğulayıb.

# İslamşünaslıq ixtisasına qəbul olunmaq istəyən abituriyentlər üçün müsahibə mərhələsi



Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 9-16 sentyabr 2020-ci il tarixlərində III ixtisas qrupu üzrə bakalavr pilləsinin İslamşünaslıq ixtisasına qəbul olunmaq istəyən abituriyentlər üçün müsahibə mərhələsi keçirilib.

Dövlət İmtahan Mərkəzinin (DİM) saytında müsahibə mərhələsində iştirak etmək üçün qeydiyyat avqustun 31-dən sentyabrın 2-dək aparılıb. Ümumilikdə, 174 abituriyent qeydiyyatdan keçib. Onlardan 76 nəfər "məqbul" alıb.



Abituriyentlərin dünyagörüşü səviyyələrinin və İslamşünaslıq ixtisasına maraqlarının müəyyənləşdirilməsi məqsədilə Dövlət İmtahan Mərkəzi tərəfindən Dini-Psixoloji Komissiya (DPK) yaradılıb. Komissiyanın tərkibinə ilahiyyat sahəsi üzrə mütəxəssislər, ekspertlər, psixoloqlar, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan İlahiyyat İnstitutu və DİM-in əməkdaşları daxil ediliblər.

Müsahibədən "məqbul" qiymət almış abituriyentlər ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı, Azərbaycan İlahiyyat İnstitutunun İslamşünaslıq ixtisasını da seçə biləcəklər.



Qeyd edək ki, Dövlət İmtahan Mərkəzi Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimini 10-20 sentyabr 2020-ci il tarixdə həyata keçirir.

Məlumat üçün bildirək ki, DPK ölkədə koronavirus (COVID-19) pandemiyasının daha geniş yayılmasının qarşısını almaq məqsədilə Operativ Qərargahın tətbiq etdiyi xüsusi karantin rejimi qaydalarına uyğun olaraq fəaliyyət göstərib. Mövcud vəziyyətlə əlaqədar olaraq, Naxçıvan Muxtar Respublikasından qeydiyyatdan keçən abituriyentlərlə müsahibə distant (məsafədən) formada keçirilib.



Azərbaycan İlahiyyat İnstitutunda təhsil tam ödənişsizdir. AİI Azərbaycan xalqının tarixi ənənələrə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub-saxlanılması, inkişafı və dini fəaliyyət sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təmin edilməsi məqsədilə müasir təhsil standartları və müvafiq sahədə dünya təcrübəsi əsasında fəlaiyyət göstərir. İnstitutda müasir sosial elmlərin metodları əsasında İslamla yanaşı, digər dünya dinlərinin inanc, ibadət, əxlaq sistemi və ictimai strukturları, həmçinin, dini elmlərlə yanaşı, fəlsəfə, sosiologiya, psixologiya, multikulturalizm və s. sosial və humanitar elmlər də tədris olunur.

# 15 SENTYABR – BİLİK GÜNÜ MÜNASİBƏTİLƏ ONLAYN İCLAS

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 15 sentyabr 2020-ci il tarixdə yeni tədris ilinin başlanması ilə bağlı onlayn iclas keçirilib. "Microsoft Teams" platforması üzərindən təşkil olunan iclasda AİI-nin rəhbər heyəti, müəllimləri və tələbələri iştirak ediblər.



İclasda çıxış edən AİI-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov yeni tədris ilinin başlanması münasibətilə müəllim və tələbələri təbrik edib. Rektor yeni tədris ilinin Azərbaycan Respublikası ərazisində koronavirus (COVID-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin yeni qaydalarla başlanması haqqında danışıb.

Rektor yeni dərs ilinin distant formada təşkili, xüsusi karantin rejiminin tələblərinə ciddi şəkildə riayət olunmasının təmin edilməsi barədə ətraflı məlumat verib.

Daha sonra AİI-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Mübariz Camalov çıxış edərək, yeni qaydalarla başlayacaq tədris ilinin təşkili qaydalarından bəhs edib. Yeni tədris ilində dərslərin Təhsil Nazirliyinin tövsiyəsinə uyğun olaraq, distant (məsafədən) "Microsoft Teams" platforması üzərindən keçiriləcəyini qeyd edən prorektor bu proqramın üstünlüklərindən danışaraq, tələbələrin dərslərdə fəal şəkildə iştirak etmələrini, proqramın üstünlüklərindən yararlanmağı tövsiyə edib.

İclas tələbələri maraqlandıran suallar ətrafında müzakirələrlə davam edib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, ölkə üzrə xüsusi karantin rejiminin tətbiqi qaydalarına uyğun olaraq, həmçinin Təhsil Nazirliyinin müvafiq əmri ilə AİI-də 2020-2021-ci tədris ili 15 sentyabr 2020-ci il tarixdə bakalavriat və magistratura səviyyələrinin II və yuxarı kurs tələbələri üçün distant formada başlayıb.

# "İLAHİYYAT" ELMİ-PUBLİSİSTİK JURNALI ÇAP OLUNUB

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) "İlahiyyat" elmi-publisistik jurnalı dərc olunub. On dörd rubrikadan ibarət jurnalda öz sahəsinin peşəkar mütəxəssisi olan elm adamlarının, həmçinin AİI-nin tələbə və məzunlarının yazıları yer alıb.

Jurnalın bu sayı "Rəsmi guşə" rubrikası ilə başlayır.

"Qafqazda dini tolerantlıq tarixi ənənə kimi", "Peyğəmbərlik: meydanoxuma", "İslamda boşanma (talaq)", "İslamda Qurban" adlı məqalələr "Cəmiyyət və din" rubrikasında dərc olunub.

"İlahiyyat" elmi-publisistik jurnalının "Tədris" rubrikasında "Distant təhsil", "Təcvid elmində "ləhn" anlayışı və onun namazla bağlılığı"; "Vətənpərvərlik" rubrikasında "Erməni xisləti", "Vətənpərvərlik şüuru din müstəvisində", həmçinin "Qarabağ əzəli Azərbaycan torpağıdır" başlıqlı məqalələr yerləşdirilib.

"Baxış bucağı" rubrikasında "Dörd məfhum", "Səmavi dinlərdə müqəddəs bayramlar" sərlövhəli yazılar yer alıb.




"Görkəmli empirik alim əl-Biruni", "İbn Heysəm optika problemlərinin müsəlman tədqiqatçısı kimi", "Azərbaycanı dünyaya tanıdan dahi" başlıqlı məqalələr isə "Müsəlman mütəfəkkirlər" rubrikasında verilib.

Jurnalın "Analitik təhlil", "İslam əxlaqı", "Araşdırma", "Ədəbiyyat", "İslam əxlaqı", "Dəyərlərimiz", "Məzun sözü", "Təbəssüm" başlıqlı müxtəlif rubrikalarında fərqli məqalələr dərc edilib.

Qeyd edək ki, təsisçisi Azərbaycan İlahiyyat İnstitutu olan "İlahiyyat" elmi-publisistik jurnalının ildə 3 dəfə nəşr olunması nəzərdə tutulub.

# İnstitutun müəllimi "Arabi21" saytına müsahibə verib



Azərbaycan İlahiyyat İnstitutunun müəllimləri Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaqda davam edirlər. AİI-nin Dillər və ictimai fənlər kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov Qətərin "Arabi21" saytına müsahibə verib.

Müsahibədə Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda antiterror və sülhməcburetmə əməliyyatlarına başlamasından etibarən, Fransanın bəzi hökumət dairələrinin, yerli özünüidarəetmə qurumlarının Ermənistana siyasi və birbaşa dəstəyi haqqında danışılır, Fransa–Ermənistan münasibətlərinin tarixi kökləri göstərilir. Qeyd olunur ki, hələ XX əsrin başlanğıcında Fransa Prezidenti Raymon Puankarenin Azərbaycan xalqının qəddar düşməni, Zəngəzur və Qarabağda dinc əhaliyə qarşı qətliamlar törətmiş Andranik Ozanyanı "Şərəf Legionu Ordeni" ilə təltif etməsi bir çox mətləbdən xəbər verir. Həmçinin qeyd edilir ki, Fransanın hakim dairələrinin Ermənistanı dəstəkləyən bəyanatlar verməsi Fransanın Minsk qrupundakı həmsədr statusuna ziddir. Daha sonra bildirilir ki, Fransadakı erməni lobbisi ölkənin iqtisadi-siyasi həyatında ciddi təsirə malikdir və Makron siyasi praqmatizm naminə Ermənistanı dəstəkləyən bəyanatlar verir.

Müsahibədə Fransadan Ermənistana göndərilmiş "yardımlar" və Qarabağda hərbi əməliyyatlarda iştirak etməyə gəlmiş Fransa vətəndaşları, Fransa bələdiyyələrinin terrorizmi maliyyələşdirən erməni fondlarına maliyyə yardımları haqqında danışılır.

Qeyd edək ki, Ermənistanın 27 sentyabr 2020-ci il tarixdən Azərbaycana qarşı başladığı növbəti təxribatı ilə bağlı AİI rektoru Aqil Şirinov əməkdaşlıq etdiyi xarici ölkə universitetlərinin rektorlarına, eləcə də İslam dünyasında tanınmış ali təhsil müəssisələrinin və ali dini təhsil ocaqlarının rəhbərlərinə Müraciət ünvanlayıb, İnstitutun müəllimləri isə ərəb mətbuatında məqalələrlə çıxış edib.

# 2020-2021-ci tədris ili üzrə qəbul planı 100 faiz dolub

Azərbaycan İlahiyyat İnstitutuna (AİI) 2020/2021-ci tədris ili üzrə qəbul planı 100 faiz dolub.

AİI-yə ödənişsiz əsaslarla həyata keçirilən qəbulda Dinşünaslıq ixtisası üzrə 36, İslamşünaslıq ixtisası üzrə 36 nəfər olmaqla, ümumilikdə, 72 abituriyentin qəbulu baş tutub. 2020/2021-ci tədris ili üzrə Dinşünaslıq ixtisasına minimum keçid balı 305, İslamşünaslığa isə 218 olub.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutuna qəbul olan abituriyentlərin qeydiyyatı 2020-ci il sentyabrın 25-dən oktyabrın 7-dək hər gün (şənbə, bazar günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək elektron qaydada aparılacaq. Qeyd olunan sənədlər (https://bit.ly/3cserb9) skan olunaraq elektronlaşdırılmalı və qebul@ait.edu.az elekton poçt ünvanına göndərilməlidir.

Məlumat üçün bildiririk ki, 2020/2021-ci tədris ilində Azərbaycan İlahiyyat İnstitutuna qəbul olub, amma qeydiyyatdan keçməyən abituriyentlər ixtisasları üzrə təhsil almaqdan imtina etmiş sayılırlar.

Nəzərə çatdırırıq ki, Azərbaycan İlahiyyat İnstitutu 2020/2021-ci tədris ili üzrə tələbə qəbulunu həyata keçirib. İnstituta tələbə qəbulu Dövlət İmtahan Mərkəzinin xətti ilə III ixtisas qrupu üzrə iki istiqamətdə – Dinşünaslıq və İslamşünaslıq ixtisasları üzrə aparılıb.

Əlavə suallarla bağlı aşağıdakı nömrələrlə (şənbə, bazar günləri istisna olmaqla, saat 10:00-dan 17:00-dək) əlaqə saxlamaq mümkündür: (012) 510 65 45; 510 39 61 və (077) 457 77 32.

# İnstitutun müəllimləri Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırırlar







Azərbaycan İlahiyyat İnstitutunun (AİI) müəllimləri Şanlı Ordumuzun qətiyyətli əks-hücumuna dəstək, erməni təxribatını, Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq məqsədilə dünyanın müxtəlif mətbu orqanlarında məqalələrlə çıxış ediblər.

Belə ki, AİI Dillər və ictimai fənlər kafedrasının müəllimləri Qarabağla bağlı ərəb dilində məqalələrlə müxtəlif mətbu orqanlarında çıxış ediblər. Kafedranın müdiri, fəlsəfə










üzrə fəlsəfə doktoru, dosent İlkin Əlimuradov, kafedranın dosenti, ilahiyyat üzrə fəlsəfə doktoru Məmmədəli Babaşlı, kafedranın dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov, kafedranın müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Əmir Kahayev və kafedranın müəllimi Lalə Əliquliyevanın məqalələri Misir və ərəb mətbuatının qabaqcıl xəbər agentliklərində, saytlarında dərc olunub.

Qeyd edək ki, Ermənistanın 27 sentyabr 2020-ci il tarixdən Azərbaycana qarşı başlayan növbəti təxribatının qarşısı Azərbaycanın Şanlı Ordusu tərəfindən qətiyyətlə alınır. Belə ki, ordumuzun əks-hücumları nəticəsində illərdir, düşmən işğalında olan Qarabağ torpaqları qəhrəmancasına aparılan mübarizə nəticəsində geri qaytarılır.

# AİI rəhbərliyi akademik Vasim Məmmədəliyevin məzarını ziyarət edib



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rəhbərliyi 13 oktyabr 2020-ci il tarixdə dünyaşöhrətli şərqşünas və ilahiyyatçı alim, Qurani-Kərimin Azərbaycan dilinə tərcüməçilərindən biri, Əməkdar elm xadimi, "Şərəf" və "Şöhrət" ordenli, akademik Vasim Məmmədəliyevin vəfatının ildönümü ilə əlaqədar məzarını ziyarət edib, böyük alimin xatirəsini yad edib.

AİI-nin rektoru Aqil Şirinov akademiklə bağlı xatirələrini bölüşüb. Onun yüksək insani keyfiyyətlərindən, zəngin mənəviyyatından, elmdəki misilsiz xidmətlərindən bəhs edib, tələbələrinin böyük alimin məktəbini uğurla davam etdirdiklərini bildirib. V.Məmmədəliyevin İslam dəyərlərimizin təbliğ və təşviqində böyük xidmətləri olduğunu qeyd edən A.Şirinov alimin özündən sonra nəhəng bir məktəb qoyub-getdiyini bildirib. AİI rektoru Bakı Dövlət Universitetinin keçmiş İlahiyyat fakültəsində Vasim Məmmədəliyevin rəhbərliyi ilə savadlı, yüksək əxlaqi keyfiyyətlərə malik kadrların yetişdiyini diqqətə çatdırıb.



Alimin bizim üçün dəyərli əsərlər qoyub-getdiyini bildirən rektor qeyd edib ki, o, sovet rejimi dövründə Qurani-Kərimi ilk dəfə Azərbaycan dilinə tərcümə edib. İlk dəfə 1991-ci ildə işıq üzü görmüş bu tərcümə indiyə qədər müxtəlif illərdə 10 dəfə nəşr olunub.

Ziyarətçilər alimin məzarı önünə gül dəstələri qoyub və ruhuna dualar oxuyublar.

# Silahlı Qüvvələrə Yardım Fonduna ianə

Azərbaycan İlahiyyat İnstitutunun rəhbərliyi və əməkdaşları ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizə aparan Azərbaycan Ordusuna dəstək məqsədilə könüllü olaraq maaşlarının bir hissəsini Azərbaycan Silahlı Qüvvələrinin Yardım Fonduna ianə ediblər. Ali təhsil müəssisəsinin kollektivi, ümumilikdə, 7236,50 manat məbləğində Fonda vəsait köçürüb.

Qeyd edək ki, Silahlı Qüvvələrə Yardım Fondu Respublika Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə ölkənin etibarlı müdafiəsi üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etmək məqsədilə yaradılıb.

Ermənistanın 27 sentyabr 2020-ci il tarixdən Azərbaycana qarşı başlayan növbəti təxribatının qarşısı Şanlı Ordumuz tərəfindən qətiyyətlə alınır. Əks-hücum başlayan gündən ölkəmizdə fəaliyyət göstərən müxtəlif nazirliklər, təşkilatlar, agentliklər, ali təhsil müəssisələri, həmçinin dünyada yaşayan azərbaycanlılar tərəfindən Silahlı Qüvvələrə Yardım Fonduna ianələr köçürülüb.

Ali təhsil müəssisəsinin rəhbərliyi və kollektivi ordumuzun əks-hücum əməliyyatları nəticəsində Cəbrayıl və Füzuli rayonlarının işğaldan azad olunmuş 14 kəndi, o cümlədən müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyin tərəfimizdən ələ keçirilməsi münasibətilə xalqımızı təbrik edir, ona yeni zəfərlər arzulayır.

Qarabağ Azərbaycandır!

# Azərbaycan İlahiyyat İnstitutunun rektoru xarici ölkə universitetlərinə Müraciət ünvanlayıb



Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov 12 oktyabr 2020-ci il tarixdə əməkdaşlıq etdiyi xarici ölkə universitetlərinin rektorlarına, eləcə də İslam dünyasında tanınmış ali təhsil müəssisələrinin və ali dini təhsil ocaqlarının rəhbərlərinə Ermənistanın 27 sentyabr 2020-ci il tarixdən Azərbaycana qarşı başladığı növbəti təxribatı ilə bağlı Müraciət ünvanlayıb.

Müraciətdə deyilir:

"Tarixən Azərbaycan torpaqlarına göz dikən ermənilərin doğma yurdumuza növbəti təcavüzündən, təxminən 30 il ötür. Torpaqlarımıza ilk hücumlar 1980-ci illərin sonlarından başlamış və 1994-cü ilədək olan dövr ərzində Dağlıq Qarabağ və ətrafındakı 7 rayon erməni qoşunları tərəfindən işğal olunmuş, nəticədə, 1 milyondan çox azərbaycanlı öz doğma yurd yerlərindən didərgin düşmüşdür. Həmin ilin may ayında imzalanmış Bişkek protokoluna əsasən atəşkəs elan edilmiş və bölgədə hərbi əməliyyatlar dayandırılmışdır. Atəşkəsin elan edilməsinə baxmayaraq, ötən illər ərzində Azərbaycan Ordusu və mülki əhalisi mütəmadi olaraq erməni təcavüzünə məruz qalmış, bir çox hallarda bu hücumlar daha şiddətli xarakter almışdır. Bu illər ərzində minlərlə Azərbaycan əsgəri və dinc əhali erməni təxribatının qurbanı olmuşdur.

1993-cü ildə BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Dağlıq Qarabağ və ətraf rayonları qeyd-şərtsiz tərk etməsi barədə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələri isə hələ də icra edilməmişdir.

Ötən illər ərzində beynəlxalq hüquq normaları çərçivəsində Azərbaycanın həyata keçirdiyi sülhməramlı və diplomatik fəaliyyət nəticəsində ilkin mərhələdə 5, daha sonra 2 rayonun işğaldan azad edilməsi, daha sonra Azərbaycanın tərkibində olmaqla, Dağlıq Qarabağda əvvəllər olduğu kimi, azərbaycanlıların ermənilərlə birlikdə yaşamalarını təmin etmək münaqişənin ən münasib həll yolu kimi nəzərdə tutulurdu. Ermənistanın Baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır", "Azərbaycan Qarabağla danışıqlar aparmalıdır", "İşğal edilmiş torpaqlar Azərbaycana qaytarılmayacaq" kimi bəyanatları, son aylarda Azərbaycana qarşı müxtəlif hücum əməliyyatlarını həyata keçirməsi, təxribatlar törətməsi Ermənistanın sülh tərəfdarı olmadığını göstərdi və müharibənin yenidən alovlanmasına rəvac verdi.

27 sentyabr 2020-ci il tarixdə Azərbaycan Ordusu erməni təxribatına qarşı bütün cəbhəboyu əks-hücum əməliyyatına başladı. Əməliyyatlar Azərbaycan Respublikasının beynəlxalq müstəvidə tanınan və mövcud xəritələrdə Azərbaycan ərazisi kimi qeyd edilən torpaqlarda aparılır. Öz ərazisində düşmənə qarşı vuruşan Azərbaycan əsgərlərinin yalnız hərbi obyektləri və hərbi infrastrukturu hədəf almasına baxmayaraq, erməni ordusu 1949-cu il Cenevrə konvensiyasına zidd olaraq, Ermənistan sərhədindən kilometrlərlə uzaqda yerləşən Azərbaycan şəhərlərini, yaşayış üçün mühüm əhəmiyyət kəsb edən sənaye obyektlərini, xəstəxanaları, məktəbləri, uşaq bağçalarını, yaşayış evlərini və dinc əhalini atəşə tutur. Hücumlar nəticəsində onlarca mülki vətəndaş həlak olmuş, yüzlərlə insan yaralanmış və mülki infrastruktura ciddi ziyan dəymişdir. Belə ki, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə, regionun ən böyük su-elektrik stansiyası olan Mingəçevir su anbarı və beynəlxalq əhəmiyyətli Bakı–Tiflis–Ceyhan boru kəməri erməni qoşunları tərəfindən hüquq normalarına zidd olan, qadağan edilmiş silahlarla atəşə məruz qalmışdır. Bu isə Ermənistanın regionun və Avropanın enerji təhlükəsizliyinə böyük təhdid olduğunu bir daha göstərir.

Ermənistandan fərqli olaraq Azərbaycan tolerant, multikultural və multietnik dövlətdir. Azərbaycanda insanlar dini və ya etnik mənsubiyyətlərinə görə ayrı-seçkiliyə məruz qalmırlar. Müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin birlikdə, sülh şəraitində yaşadıqları və dövlətin qayğısı ilə əhatə olunduqları Azərbaycan tərəfindən keçən 30 il ərzində səbirli davranış, beynəlxalq arenada məsələnin sülh və danışıqlar yolu ilə həll olunmasına tərəfdaşlıq nümayiş etdirilmişdir. Ötən illər ərzində Ermənistanın beynəlxalq hüquq normalarına riayət etməməsi, beynəlxalq təşkilatların işğalçı dövlətə qarşı heç bir sanksiya tətbiq etməməsi, vasitəçilərin səmərəsiz fəaliyyəti Azərbaycanı düşmənlə eyni dildə danışmağa vadar etmişdir. Azərbaycan BMT Təhlükəsizlik Şurasının işğal olunmuş ərazilərin boşaldılması ilə bağlı qəbul etdiyi qətnamələrin yerinə yetirilməsi ilə erməni qoşunlarının Dağlıq Qarabağ və ətraf rayonlardan geri çəkilməsi və qaçqın düşmüş 1 milyon insanın öz doğma yurd yerlərinə geri qaytarılmasını tələb edir və bunun üçün öz haqq mübarizəsini davam etdirir. Sizdən xahişim rəhbərlik etdiyiniz kollektivi və ölkənizin ictimaiyyətini Azərbaycanın bu haqq mübarizəsi ilə tanış etməyinizdir".

***Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinovun əməkdaşlıq etdiyi xarici ölkə universitetlərinin rektorlarına, eləcə də İslam dünyasında tanınmış ali təhsil və ali dini təhsil ocaqlarının rəhbərlərinə Ermənistanın sentyabrın 27-dən Azərbaycana qarşı başladığı növbəti təxribatı ilə bağlı Müraciəti çoxsaylı ərəb mətbuatında dərc olunub.***


















# MOSKVA İSLAM İNSTİTUTUNUN REKTORU DEMİR MUXEDDİNOV REKTOR AQİL ŞİRİNOVUN MÜRACİƏTİNƏ CAVAB MƏKTUBU ÜNVANLAYIB



Rusiya Federasiyası Müsəlman Ruhani İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru Demir Muxetdinov Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) rektoru Aqil Şirinovun Qarabağ həqiqətlərini özündə əks etdirən Müraciətinə 16 oktyabr 2020-ci il tarixdə cavab məktubu ünvanlayıb.

Məktubda deyilir:

"Son həftələrdə bütün beynəlxalq ictimaiyyətin diqqəti Dağlıq Qarabağ regionunda baş verən hadisələrə yönəlib. Biz sülh və dialoq tərəfdarı olaraq, münaqişənin ölkələrin ərazi bütövlüyü prinsiplərinə və beynəlxalq səviyyədə qəbul edilmiş akt və sənədlərə uyğun surətdə diplomatik yolla həll olunmasını istəyirik.

Narahat olduğumuz əsas məqam isə ərazi münaqişəsinin dini münaqişə kimi qələmə verilməsidir ki, bu, qətiyyən doğru deyildir. Hesab edirik ki, Dağlıq Qarabağdakı müharibənin müsəlman-xristian davası olmadığını daha geniş ictimaiyyətə çatdırmaq bizim borcumuzdur və məsələyə bu cür yanaşma münaqişənin dərinləşməsinə, həmçinin yeni ölümlərə gətirib çıxara bilər.

Biz insanların həyatının qorunması və danışıqların bərpa edilməsi üçün dua edirik. Ölkəmiz, xalqlarımız arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı naminə dualarımı qəbul edin."

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov əməkdaşlıq etdiyi xarici ölkə universitetlərinin rektorlarına, eləcə də İslam dünyasında tanınmış ali təhsil müəssisələrinin və ali dini təhsil ocaqlarının rəhbərlərinə Ermənistanın 27 sentyabr 2020-ci il tarixdən Azərbaycana qarşı başladığı növbəti təxribatı ilə bağlı Müraciət ünvanlayıb.

## 17 Noyabr – Milli Dirçəliş Gününə həsr olunmuş videokonfrans

Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) 17 Noyabr – Milli Dirçəliş Gününə həsr olunmuş videokonfrans keçirilib. "Microsoft Teams" proqramı üzərindən 17 noyabr 2020-ci il tarixdə təşkil olunan videokonfransda Aİİ-nin rektoru, rəhbər heyəti, müəllimlər və tələbələr iştirak ediblər.




Aİİ-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov çıxış nitqi ilə videokonfrans iştirakçılarını salamladıqdan sonra, Qələbə münasibətilə görüş iştirakçılarını təbrik edib. Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Müzəffər Azərbaycan Ordusunun qəhrəmanlıqlarından bəhs edib, şəhidlərə Allahdan rəhmət, yaralı qazilərə şəfa diləyib.

Videokonfransda çıxış edən AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu Şərq-Qərb şöbəsinin müdiri, Aİİ-nin dosenti, ilahiyyat üzrə fəlsəfə doktoru Məmmədəli Babaşlı Milli Dirçəliş Gününün Azərbaycan tarixində özünəqayıdışın başlanğıcı, tarixi gün olduğunu bildirib. Milli Dirçəliş Gününə qədər baş vermiş tarixi hadisələr barədə ətraflı danışan M.Babaşlı ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində və müstəqilliyimizin qorunmasında misilsiz tarixi xidmətlərindən bəhs edib. Milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcının qoyulduğunu vurğulayan Məmmədəli Babaşlı Dağlıq Qarabağda qazanılan qələbənin birliyin və bərabərliyin nəticəsi olduğunu diqqətə çatdırıb.

Videokonfrans digər iştirakçıların və tələbələrin qarşılıqlı müzakirəsi ilə davam edib.




# Azərbaycan İlahiyyat İnstitutunda Birdəfəlik dissertasiya şurası yaradılıb

Azərbaycan İlahiyyat İnstitutunda 23 noyabr 2020-ci il tarixdə Birdəfəlik dissertasiya şurası yaradılıb.

Aİİ-nin nəzdində fəlsəfə elmləri sahəsində fəlsəfə doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün yaradılan Birdəfəlik dissertasiya şurası iki ixtisas üzrə fəaliyyət göstəriləcək: "Dinşünaslıq" və "Dinin tarixi və fəlsəfəsi".

Şuranın yaradılması Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq edilmiş müvafiq əmrə əsasən həyata keçirilib.

Birdəfəlik dissertasiya şurası Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 4.9-cu bəndinə əsasən, "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 4.2.1-ci yarımbəndi və 4.8-ci bəndinə uyğun olaraq yaradılıb.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan Respublikası Prezidentinin 9 fevral 2018-ci il tarixli 3654 nömrəli Sərəncamına əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılıb. Aİİ-yə bakalavriat səviyyəsi üzrə "Dinşünaslq" və "İslamşünaslıq", magistratura səvviyəsi üzrə "Dinin psixologiyası", "Dinin sosiologiyası", "Dinlərin tarixi", "İslamşünaslıq", doktorantura və dissertantura səviyyələri üzrə isə "Dinşünaslıq" və "Dinin tarixi və fəlsəfəsi" ixtisasları üzrə qəbul həyata keçirilir.

# İnstitutda onlayn ingilis dili kurslarına start verilib




Azərbaycan İlahiyyat İnstitutunda 24 noyabr 2020-ci il tarixdə onlayn formada ingilis dili kurslarına start verilib.

Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) tərəfindən təşkil olunan ingilis dili kursunda ali təhsil müəssisəsində təhsil alan tələbələr pulsuz iştirak edirlər. Kursların təşkilində məqsəd tələbələrin həm akademik, həm də şəxsi inkişafına töhfə verməkdir.




Layihə çərçivəsində tələbələrin ingilis dili üzrə 4 dil bacarığının artırılması yönündə dərslər keçirilir.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunda tələbələrin sahib olacaqları ixtisası daha dərindən bilmək, onun sirlərinə yiyələnmək üçün bir neçə ay əvvəl onlayn İslam əqaidi üzrə ərəbcə klassik dini mətnləri oxuma kursu fəaliyyətə başlayıb. Eyni zamanda, pandemiya dövründə tələbələr üçün motivasiya xarakterli təlimlərin, yarış və müsabiqələrin, həmçinin ixtisasyönümlü onlayn kursların təşkili nəzərdə tutulub.

# PSİXOLOQLA TƏLƏBƏLƏRİN ONLAYN GÖRÜŞÜ



Azərbaycan İlahiyyat İnstitutunun psixoloqu İlkin Kazımlının 25 noyabr 2020-ci il tarixdə tələbələrlə onlayn görüşü təşkil olunub.

Görüş mövcud pandemiya dövründə dərslərin məsafədən keçirilməsi zamanı tələbələrdə yarana biləcək stress vəziyyətlərini araşdırıb, ortadan qaldırmaq məqsədilə keçirilib.

İ.Kazımlı I kurs tələbələrinin dərslərin məsafədən təşkil olunması zamanı yarana biləcək çətinliklərin aradan qaldırılması ilə bağlı tövsiyələrini verib.

Psixoloq gənclərə bir sıra məsələlərin həllində soyuqqanlı olmağı, qarşılaşdıqları çətinlikləri təbii qəbul etməklə adiləşdirməyi tövsiyə edib. Bəzi problemlərin həllində psixoloji durumun köməklik göstərə biləcəyini də nəzərə çatdırıb.

Görüş zamanı tələbələr onları maraqlandıran sualları psixoloqa ünvanlayıblar.

Məlumat üçün bildirək ki, xüsusi karantin dövründə tələbələrin onlayn dərslərdə fəal iştirak etmələri, pandemiya zamanı stresdən uzaq qalmaq və xüsusi karantin rejiminə adaptasiya ilə bağlı problem yaşayan tələbələrlə psixoloqun mütəmadi olaraq onlayn görüşləri təşkil olunur. Həmçinin, İ.Kazımlı problemli tələbələrlə fərdi onlayn məsləhətləşmələr keçirir.

## İnstitutda dərslərin məsafədən təşkili uğurla davam edir

Azərbaycan İlahiyyat İnstitutunda 1 dekabr 2020-ci il tarixdə 2020/2021-ci tədris ili üçün qış semestri imtahanlarına hazırlıq prosesi başlanıb. Yaxın günlərdə imtahanların keçirilməsi ilə bağlı Elmi Şuranın qərarı tələbələrə açıqlanacaq.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunda dərslərin məsafədən keçirilməsi uğurla davam edir.

AİI-də təhsilin bütün pillələrində təhsilalanlar üçün dərslər sillabuslara və dərs cədvəllərinə uyğun olaraq, Təhsil Nazirliyinin tövsiyəsi ilə onlayn şəkildə "Microsoft Teams" platforması üzərindən keçirilir. "Microsoft Teams" platformasının üstünlüyü odur ki, dərslərə məsafədən qoşula bilməyən tələbələrin daha sonradan proqramdan istifadə etmək imkanları olur.

Tədris prosesi zamanı tələbələrin qiymətləndirilməsi, müəllim-tələbə müzakirəsinin aparılması, mühazirə, eləcə də digər materialların ötürülməsi və başqa məsələlərlə bağlı AİI-nin müvafiq şöbələri qarşılıqlı şəkildə fəaliyyət göstərir.

Dərslərin məsafədən təşkili zamanı rəhbər heyət müntəzəm olaraq tələbələrlə onlayn görüşlər keçirir, onların problemlərini dinləyir, təklif və şikayətlərinin yerindəcə həll olunması üçün tapşırıqlar verir.



Məlumat üçün bildirək ki, xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrində 2020-ci il 2 noyabr tarixindən tədris və təlim-tərbiyə prosesinin distant (məsafədən) formada təşkili təmin edilir. Baş nazir Əli Əsədovun Qərara etdiyi dəyişikliyə əsasən, Azərbaycan Respublikasında distant tədris prosesinin müddəti dekabrın 1-dən 30-dək uzadılıb.



# AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTUNDA AKADEMİK VASİM MƏMMƏDƏLİYEVİN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ RESPUBLİKA ELMİ KONFRANSI

Azərbaycan İlahiyyat İnstitutunun təşkilatçılığı ilə 26 noyabr 2020-ci il tarixdə Azərbaycan şərqşünaslığının görkəmli nümayəndələrindən biri, Əməkdar elm xadimi, akademik Vasim Məmmədəliyevin xatirəsinə həsr olunmuş "Akademik Vasim Məmmədəliyevin ilahiyyat və şərqşünaslıq elmlərinə verdiyi töhfələr" mövzusunda respublika elmi konfransı keçirilib.

Konfrans onlayn formada "ZOOM" proqramı üzərindən təşkil olunub.



AİI rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov açılış nitqi ilə qonaqları və konfrans iştirakçılarını salamladıqdan sonra, böyük qələbə münasibətilə təbriklərini çatdırıb. Daha sonra rektor Vasim Məmmədəliyevin dünya və Azərbaycan elminə bəxş etdiyi töhfələr və yüksək xidmətləri barədə ətraflı bəhs edib. Onun tərcümə etdiyi Qurani-Kərimin Azərbaycan dilində mükəmməl tərcümə olduğunu xüsusi vurğulayıb. Rektor mərhum akademikin həyatı və elmi fəaliyyəti barədə geniş məlumat verib. AİI-nin yaranmasında onun mühüm xidmətlərinin olduğu Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin rolunu xüsusi vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə çıxışına Vasim Məmmədəliyevin ruhuna dua oxumaqla başlayıb. Şeyx Həzrətləri V.Məmmədəliyevlə bağlı xatirələrini danışıb, onunla tanışlıq və dostluq münasibətlərini xatırlayıb. Vasim Məmmədəliyevlə birlikdə çalışmalarının İslam dininə yeni ruh verdiyini xüsusi vurğulayan Şeyxülislam AİI-yə konfransın təşkil edilməsinə görə təşəkkür edib.



Pandemiya dövründən sonra akademik Vasim Məmmədəliyevə həsr olunacaq beynəlxalq və yerli konfransların təşkil olunacağını xüsusi qeyd edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı qeyd edib ki, özündən



sonra böyük irs qoyub-gedən və indi də hər kəsin, elm adamlarının yararlandığı, bəhrələndiyi Vasim Məmmədəliyevlə hər ünsiyyətdən sonra onun necə dərin fəhm və zəkaya sahibliyinin şahidi olub. Komitə sədri qeyd edib ki, akademiklə birlikdə iştirak etdikləri dövlət tədbirləri, konfranslar və başqa tədbirlərdə onun vətənpərvər və azərbaycançılıq ideologiyasının təbliğatçısı olduğu aydın görünürdü. Mübariz Qurbanlı konfrans təş-

kilatçılarına öz təşəkkürünü çatdırıb, AİI-nin bundan sonra Vasim Məmmədəliyevin irsini layiqincə davam etdirəcəyinə ümidvar olduğunu vurğulayıb.

Millət vəkili, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov çıxış edərək, elm dünyasında xüsusi yeri olan V.Məmmədəliyevin mükəmməl ərəb dili mütəxəssisi olduğunu vurğulayıb. O qeyd edib ki, akademik şəriəti detallarına kimi ətraflı izah edə bilirdi. Bunun illərlə akademikin aparıcısı olduğu “Haqqın dərgahı” verilişində də əyani surətdə göründüyünü xüsusilə qeyd edən millət vəkili Qurani-Kərimin tərcüməsinin elm aləmi üçün xüsusi önəmini vurğuladıqdan sonra, İlahiyyat İnstitutunun pedaqoji heyətinin məhz onun tələbələrinin olmasının böyük əhəmiyyətini qeyd edib.

Bakı Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Şahin Panahov konfrans iştirakçılarını BDU rektoru Elçin Babayev adından salamladıqdan sonra, akademikin universitetdə tələbə olduğu vaxtdan vəfatınadək keçdiyi dövrlər barədə ətraflı danışıb. Prorektor Vasim Məmmədəliyevin İslam dininin təbliği sahəsində gördüyü işləri yüksək qiymətləndirərək, 101 illik tarixi olan BDU-nun tarixində onun şərqşünas, ilahiyyatçı, elm xadimi kimi əbədi yaşayacağını vurğulayıb.

Akademikin qardaşı, Azərbaycan Respublikasının Xalq artisti, professor Vamiq Məmmədəliyev konfransın təşkili üçün İnstitut rəhbərliyinə təşəkkürünü çatdırıb. Vasim Məmmədəliyevin bir alim kimi formalaşmasında ailəsinin – ata və anasının rolunu xüsusi rolu olduğunu vurğulayıb. Azərbaycan Respublikası Prezidentinin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Vasim Məmmədəliyev irsinə verdiyi dəyəri xüsusi qiymətləndirib.

V.Məmmədəliyevin qızı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Bakı Musiqi Akademiyası Musiqi nəzəriyyəsi kafedrasının dosenti Turan Məmmədəliyeva konfrans iştirakçılarını salamlayaraq, tədbirə həm ailə üzvü, həm də iştirakçı kimi qatıldığının məmnunluğunu ifadə edib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı-direktoru Mehman İsmayılov çıxış edərək, akademikin tələbəsi kimi danışmaqdan fəxarət hissi keçirdiyini qeyd edib. Vasim Məmmədəliyevlə bağlı tələbəlik illərinin xatirələrini bölüşərək, onun bütün təhsilalanlara ata qayğısı ilə yanaşdığını xüsusi vurğulayıb.





AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, dosent Paşa Kərimov çıxışında Vasim Məmmədəliyevlə tanışlığı, onun alim və pedaqoq kimi fəaliyyəti barədə böyük məmnunluq hissi ilə danışıb.

Azərbaycan İlahiyyat İnstitutunun Elm və innovasiyalar üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov çıxış edərək, akademik haqqında həm elmi rəhbəri, həm dekanı, həm də müəllimi kimi xatirələrini bölüşüb.

BDU Şərqşünaslıq fakültəsinin dekanı, filologiya elmləri doktoru, professor Elxan Əzizov Vasim Məmmədəliyevlə birlikdə illərlə olan dostluq və əməkdaşlıq fəaliyyətləri barədə danışıb və onu xoş xatirələrlə xatırladığını qeyd edib.

Azərbaycan İlahiyyat İnstitutu İlahiyyat fakültəsinin dekanı, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Elnurə Əzizova çıxış edərək, hər zaman hörmət və ehtiramla anılan akademikin nəinki müəllimlərə, hətta tələbələrə qarşı da münasibətində səbir və tolerantlıq nümunəsi göstərdiyini qeyd edib.



## “Akademik Vasim Məmmədəliyevin ilahiyyat və şərqşünaslıq elmlərinə verdiyi töhfələr” mövzusunda respublika elmi konfransı panellərlə davam edib

Panellər Azərbaycan İlahiyyat İnstitutunun Dillər və ictimai fənlər kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent İlkin Əlimuradov, Dinşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Anar Qafarov, İslamşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Əhməd Niyazovun moderatorluqları ilə keçirilib.

Panellərdə professorlar İmamverdi Həmidov,





Nəsrulla Məmmədov; fəlsəfə üzrə fəlsəfə doktoru, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müa-



vini Fuad Nurullayev, filologiya elmləri doktoru Nəsib Göyüşov, dosentlər – Məmmədəli Ba-





başlı, Əsmətxanım Məmmədova, Könül Məmmədova, Səbinə Mirzəyeva, Zəkiyyə Əbilova,



Rübabə Şirinova, Şahlar Şərifov və digər məruzəçilər çıxış ediblər.



Konfransda bağlanış nitqi ilə çıxış edən rektor Aqil Şirinov tədbir iştirakçılarına təşəkkürünü bildirib. Qeyd edib ki, Qafqaz Müsəlmanları İdarəsi tərəfindən Vasim Məmmədəliyev adına



təqaüd təsis ediləcək və Azərbaycan İlahiyyat İnstitutunun semestr boyunca yüksək nəticələr göstərən 3 tələbəsinə təqdim olunacaq. Rektor buna görə Şeyx Həzrətlərinə öz təşəkkürünü bildirib.

# Azərbaycan İlahiyyat İnstitutu Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə vebinar

Azərbaycan İlahiyyat İnstitutu Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə 2 dekabr 2020-ci il tarixdə vebinar keçirilib.

"Microsoft Teams" proqramı üzərindən təşkil olunan vebinarda AİI-nin müəllimləri və tələbələri iştirak ediblər.

AİI Tələbə Elmi Cəmiyyətinin sədri, Dillər və ictimai fənlər kafedrasının dosenti Məmmədəli Babaşlı giriş nitqi ilə çıxış edib, iştirakçıları salamladıqdan sonra TEC-in fəaliyyəti barədə məlumat verib.

Daha sonra M.Babaşlı mövcud pandemiya dövründə tələbələrin elmi dünyagörüşü, intellektual səviyyələrinin artırılması istiqamətində səmərəli işlər görüləcəyini və bu cür vebinarların davamlı olaraq keçiriləcəyini vurğulayıb. Sədr qeyd edib ki, bu səpkili tədbirlər təhsilalanların yüksəkixtisaslı kadrlar kimi yetişmələrində mühüm rol oynayır.

AİI-nin müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Vüqar Səmədov "İbn Xəldun yaradıcılığında bədəvilərin əxlaqi keyfiyyətləri" mövzusunda çıxış edib.

İbn Xəldunun həyat və fəaliyyəti haqqında ətraflı məlumat verən V.Səmədov "bədəvi" sözünün tarixi kökü və mənası haqqında danışıb. Məruzəçi nitqində İbn Xəldunun bədəviliyi daha geniş mənada araşdırdığını, köçəri və kəndli qruplarına böldüyünü qeyd edib. Həmçinin daim bir yerdə məskunlaşan kəndlilər və köçəri tayfalarının hamısının bədəvi sinfini təşkil etdiyini nəzərə çatdırıb.




V.Səmədov qeyd edib ki, bədəvilərin əxlaqi keyfiyyətləri müsbət və mənfi olmaqla iki qrupa bölünür. Müsbət əxlaqi keyfiyyətlərinin azadlığa meyil, comərdlik, cəsarət, məzluma sahibçıxma; mənfi xüsusiyyətlərinin isə kobudluq olduğunu diqqətə çatdırıb.

Vebinar iştirakçıların müzakirəsi və sualları ilə davam edib.

Məlumat üçün bildirək ki, TEC-in əsas məqsədi alitəhsilli mütəxəssis hazırlanmasının keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərin həyata keçirilməsidir. Həmçinin elmi-texniki potensialın qorunub-saxlanılması və təhsilalanların elmi tədqiqat fəaliyyətinin yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasında İnstitutun işinə kömək etmək TEC-in vəzifələrindən biridir.

Cəmiyyət tələbələr arasında elmi yaradıcılığın müxtəlif formalarının təbliği, tədqiqatların aparılmasına gənclərin marağının artırılması, onlarda elmi metodların öyrənilməsinə motivasiyanın yaradılması, tədris materiallarının dərindən və mükəmməl mənimsənilməsinə köməklik göstərilməsi kimi məsələləri öhdəsinə götürür.

Erasmus+

Azərbaycan İlahiyyat İnstitutu ilə Türkiyənin Sivas Cümhuriyyət Universiteti arasında "Erasmus+" mübadilə proqramı çərçivəsində 23 dekabr 2020-ci il tarixdə Əməkdaşlıq Protokolu imzalanıb.

Protokolda hər iki

# Azərbaycan İlahiyyat İnstitutunun rektoru Avropa Şurası İşçi qrupunun iclasında iştirak edib




Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov 3 dekabr 2020-ci il tarixdə Avropa Şurası İşçi qrupunun iclasında iştirak edib.

İclas “Bluejeans” platforması vasitəsilə onlayn formada keçirilib.

Avropa Şurasının “Qeyri-ayrı-seçkilik, müxtəliflik və inklüzivlik” üzrə Rəhbər Komitəsinin (Committee on Anti-Discrimination, Diversity and Inclusion) tərkibində “Mədəniyyətlərarası inteqrasiya” (Working Group on Intercultural Integration) İşçi qrupunun ikinci görüşü 01.12.2020-02.12.2020-ci il tarixlərində keçirilib. Görüşdə Azərbaycanı İşçi qrupun üzvü kimi, Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov təmsil edib.

İclasda Avropa Şurasının nümayəndələri İvana Delesandro (Ivana D`alessandro) və İrena Quydikova (Irena Guidikova), həmçinin 10 üzv ölkənin təmsilçiləri, 10 ölkənin məhəlli idarələrinin üzvləri və mədəniyyətlərarası inteqrasiya sahəsində mütəxəssislər iştirak ediblər. Tədbirdə İşçi qrupun sədr və müavinləri seçilib. Belə ki, Norveçi təmsil edən Piya Bul Jirolami (Pia Buhl Girolami) sədr, İspaniyanın Bilbao şəhərinin təmsilçisi Klaudiya Emmanuel Laredo (Claudia Emmanuel Laredo) isə sədr müavini seçilib.

Qeyd edək ki, A.Şirinov Avropa Şurası "Mədəniyyətlərarası İnteqrasiya İşçi Qrupu"nun (Working Group on Intercultural Integration) Azərbaycan üzrə təmsilçisi seçilib.








# “Erasmus+” mübadilə proqramı çərçivəsində Əməkdaşlıq Protokolu imzalanıb

ali təhsil müəssisəsinin fakültə və kafedraları arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması; birgə layihələrin reallaşdırılması; müəllim və tələbə heyətinin mübadiləsi, akademik səfərlərin həyata keçirilməsi nəzərdə tutulur.

Proqram çərçivəsində Azərbaycan İlahiyyat İnstitutunun ən yüksək göstəricilərə malik olan tələbələri Sivas Cümhuriyyət Universitetində ikisemestrlik təhsil ala biləcək. Həmin tələbələr əlavə olaraq, təhsil müddəti ərzində təqaüdlə təmin ediləcəklər.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu ötən dövr ərzində müxtəlif ölkələrin ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələri yaradıb.

# “TƏRCÜMƏ FƏALİYYƏTİ: NƏZƏRİ ƏSASLAR, MÖVCUD VƏZİYYƏT VƏ PROBLEMLƏR” MÖVZUSUNDA VEBİNAR




Azərbaycan İlahiyyat İnstitutunda 8 dekabr 2020-ci il tarixdə “Tərcümə fəaliyyəti: nəzəri əsaslar, mövcud vəziyyət və problemlər” mövzusunda vebinar keçirilib.

Vebinar onlayn formada “ZOOM” platforması üzərindən təşkil olunub.

Aİİ-nin rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov açılış nitqi ilə iştirakçıları salamladıqdan sonra, Zəfər Günü münasibətilə təbriklərini bildirib. Daha sonra dini ədəbiyyatların, mənbələrin əksəriyyətinin ərəb, fars, ingilis və digər dillərdə olduğunu nəzərə çatdıraraq, ölkəmizi beynəlxalq səviyyədə layiqincə təmsil etmək üçün tərcümənin keyfiyyətinin vacib olduğunu vurğulayıb.



Azərbaycan Dillər Universitetinin professoru Qılıncxan Bayramov Azərbaycanda tərcümə işinin Orta əsrlərdən dini ədəbiyyatın tərcüməsi ilə başlandığını qeyd edərək, dini mətnlərin tərcümə problemlərinə toxunub.

AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Beynəlxalq əlaqələr və komprativistika şöbəsinin müdiri, filologiya elmləri doktoru Şəfəq Əlibəyli çıxış edərək, farsdilli poeziya nümunələrinin Azərbaycan dilinə tərcümələri zamanı ortaya çıxan problemlərdən bəhs edib.

Misir Ərəb Respublikası Ayn Şəms Universitetinin dosenti Əhməd Sami Elaydi söz alaraq, Azərbaycan və ərəb dilləri arasında qarşılıqlı tərcümə sahəsində mövcud vəziyyət barədə danışıb. Qeyd edib ki, Azərbaycan tarixi, mədəniyyəti ərəb dilinə daha çox tərcümə edilməli və yayılmalıdır.

Daha sonra Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru, dosent Heybət Heybətov çıxış edib. O, Qurani-Kərimin tərcümə tarixi barədə geniş məlumat verərək, Müqəddəs Kitabın tərcüməsində mövcud problemlərdən bəhs edib.

AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu Şərq-Qərb şöbəsinin müdiri, Aİİ-nin dosenti, ilahiyyat üzrə fəlsəfə doktoru Məmmədəli Babaşlı tərcümənin mümkün problemlərindən bəhs edərək, tərcümə prosesinin yersiz müdaxilədən uzaq olmasının vacibliyini vurğulayıb. Həmçinin tərcüməçinin tərcümə prosesində müəllifin yaradıcılığına tam bələd olmasının vacibliyini, xüsusilə sənətkarlıqla yanaşılmasını qeyd edib.




Vebinar iştirakçıların müzakirəsi və sualları ilə davam edib.

# Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə vebinar



Azərbaycan İlahiyyat İnstitutu Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı vebinar keçirilib.

"Microsoft Teams" proqramı üzərindən təşkil olunan vebinarda Aİİ-nin əməkdaşları və tələbələri iştirak ediblər.

Aİİ rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov iştirakçıları salamladıqdan sonra, mövcud pandemiya dövründə TEC-in işindən bəhs edib, cəmiyyətin fəaliyyətini yüksək qiymətləndirib.

İnstitut rəhbəri daha sonra Azərbaycan dilinin qaydalarına riayət etməklə, dil və nitq qaydalarını yaxşı mənimsəməklə doğma dilimizi qorumağın əhəmiyyətini vurğulayıb.

Aİİ-nin Dillər və ictimai fənlər kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov "Nitq mədəniyyəti vərdişlərinin inkişafı" mövzusunda çıxış edib.

E.Məmmədov bildirib ki, nitqin məzmunu əvvəlcədən müəyyən edilməli, mövzuya bələd olaraq hazırlaşmalı, hansı aspektdən danışılacağı qabaqcadan planlaşdırılmalıdır. Çalışmaq lazımdır ki, nitq aydın, səlis, konkret olsun. Nitq söyləyərkən, xüsusilə intonasiyaya fikir verilməlidir.

Gənclərin nitq mədəniyyətinin inkişafında mütaliənin rolunu yüksək qiymətləndirən E.Məmmədov Azərbaycan dilində olan mətnlərə üstünlük verməyi tövsiyə edib.

Vebinar iştirakçıların müzakirəsi və sualları ilə davam edib.

Məlumat üçün bildirək ki, TEC-in əsas məqsədi alitəhsilli mütəxəssis hazırlanmasının keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş elmi-təşkilati tədbirlərin həyata keçirilməsidir. Həmçinin elmi-texniki potensialın qorunub-saxlanılması və təhsilalanların elmi tədqiqat fəaliyyətinin yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasında İnstitutun işinə kömək etmək TEC-in vəzifələrindən biridir.

Cəmiyyət tələbələr arasında elmi yaradıcılığın müxtəlif formalarının təbliği, tədqiqatların aparılmasına gənclərin marağının artırılması, onlarda elmi metodların öyrənilməsinə motivasiyanın yaradılması, tədris materiallarının dərindən və mükəmməl mənimsənilməsinə köməklik göstərilməsi kimi məsələləri öhdəsinə götürür.



# “Dayanıqlılıq naminə ictimai fəaliyyət” layihəsi üzrə tərəfdaşların onlayn görüşü

Azərbaycan İlahiyyat İnstitutunda 10 dekabr 2020-ci il tarixdə “Dayanıqlılıq naminə ictimai fəaliyyət” layihəsi üzrə tərəfdaşların onlayn görüşü təşkil edilib.

Görüş BMT-nin Miqrasiya Agentliyi olan Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin təşkilatçılığı ilə keçirilib. Qeyd edək ki, tədbir ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi ilə həyata keçirilən “Dayanıqlılıq naminə ictimai fəaliyyət” layihəsi üzrə tərəfdaş qurumların nümayəndələrinin qatıldığı “ZOOM” platforması üzərindən onlayn formada təşkil olunub.

Görüşdə Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Li Litzenberqer, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin Azərbaycan nümayəndəliyinin direktoru Jaydev Sinx, BMqT-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Vladimir Georgiyev və Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov iştirak ediblər.

BMqT-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Vladimir Georgiyev çıxış edərək, birgə əməkdaşlıq və gələcəkdə nəzərdə tutulan layihələr barədə danışıb.

Daha sonra AİI rektoru Aqil Şirinov çıxış edərək, AİI-nin yaranması, fəaliyyəti, ali məktəbdə tədris prosesi, ixtisaslar barədə geniş məlumat verib. Qeyd edilən layihə çərçivəsində həyata keçirilən ingilis dili kurslarının fəaliyyətini yüksək qiymətləndirdiyini nəzərə çatdırıb.







ABŞ-ın ölkəmizdəki səfiri Li Litzenberqer söz alaraq, rektor A.Şirinovu doğulduğu Kəlbəcərin işğaldan azad olunması münasibətilə təbrik edib. Səfir, həmçinin birgə əməkdaşlığın gələcək üçün mümkün perspektivlərindən də bəhs edib.

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Azərbaycan nümayəndəliyinin direktoru Jaydev Sinx ABŞ universitetləri ilə AİI arasında əməkdaşlıq əlaqələrinin qurulması üçün birgə əməkdaşlıq aparılması variantlarından danışıb.

Görüşdə tərəfdaşlar mümkün əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparıb, yerli dayanıqlılığın artırılmasına töhfə verəcək birgə səylər üzərində işləri davam etdirməyə hazır olduqlarını vurğulayıblar.

Qeyd edək ki, AİI-də ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyə dəstəyi ilə BMT-nin Miqrasiya Agentliyi olan Beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən “Dayanıqlılıq naminə ictimai fəaliyyət” layihəsi çərçivəsində ödənişsiz onlayn ingilis dili kursları keçirilir. Pandemiya şəraitində onlayn aparılan ingilis dili dərslərində beş qrup üzrə ümumilikdə 50 nəfər iştirak edir. İştirakçılar, əsasən, AİI-də fərqli pillələr üzrə bakalavriat, magistratura və doktoranturada təhsil alan tələbələrdən ibarətdir.



# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ANIM GÜNÜ İLƏ BAĞLI VEBİNAR

Azərbaycan İlahiyyat İnstitutunda 11 dekabr 2020-ci il tarixdə ulu öndər Heydər Əliyevin anım günü ilə bağlı vebinar keçirilib.

"ZOOM" platforması üzərindən təşkil olunan görüşdə rəhbər heyət, əməkdaşlar, müəllimlər və tələbələr iştirak ediblər.

Aİİ rektoru Aqil Şirinov iştirakçıları salamladıqdan sonra, Heydər Əliyevin Azərbaycan tarixində əvəzsiz rolundan bəhs edib. Ulu öndərin xidmətlərinin nəticəsi olaraq, sütunları möhkəm bir dövlət miras qoyubgetdiyini və Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi olaraq dövlətimizin daha da inkişaf etdiyini vurğulayıb.

Din sahəsində Ulu Öndərin xüsusi xidmətlərini diqqətə çatdıran rektor bu gün dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasını məhz Ümummilli Liderin xidmətləri sayəsində baş verdiyini vurğulayıb.

Daha sonra millət vəkili Elman Nəsirov çıxış edib. O, Heydər Əliyev kimi şəxsiyyətləri tarixin çox nadir hallarda yetişdirdiyini diqqətə çatdıraraq, onu zəmanəmizin dühası adlandırıb. Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində respublikamızın hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoyduğunu vurğulayıb.

E.Nəsirov qeyd edib ki, məhz Ulu Öndərin təməlini qoyduğu Müzəffər Ordu sayəsində tarixi torpaqlarımız işğaldan azad olunub. Ümummilli Liderin dövlətçilik təcrübəsinin və siyasi irsinin layiqli davamçısı İlham Əliyevin bacarıqlı və məqsədyönlü siyasəti nəticəsində, bir güllə belə atılmadan Kəlbəcər, Ağdam və Laçın rayonları işğaldan azad olunub.



Elman Nəsirov sonda qeyd edib ki, Azərbaycan xalqı qəlbində əbədi heykəlini qoyduğu Ulu Öndərin xatirəsini daim uca tutur. Heydər Əliyevin qoyduğu zəngin irs qorunur. Müasir və müstəqil Azərbaycan Ulu Öndərin layiqli davamçısı, milli maraqları hər şeydən üstün tutan Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində gələcəyə doğru inamla irəliləyir.



# İLAHİYYAT İNSTİTUTUNUN REKTORU XVI BEYNƏLXALQ MÜSƏLMAN FORUMUNDA İŞTİRAK EDİB




Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov 14 dekabr 2020-ci il tarixdə "Görüş mədəniyyəti: pandemiya dövründə dini etika" mövzusunda XVI Beynəlxalq Müsəlman Forumunda iştirak edib.



Rusiya Federasiyasının Müsəlmanları Ruhani İdarəsi, Beynəlxalq Müsəlman Forumunun Katibliyi və Rusiya Müftilər Şurasının birgə təşkilatçılığı ilə baş tutan beynəlxalq konfrans onlayn formada keçirilib.

Forum Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi və Rusiya Müftilər Şurasının sədri, müfti Şeyx Ravil Qaynutdinin müraciəti ilə başlayıb. Ravil Qaynutdin pandemiya dövründə insanların, dövlətlərin ayrı-ayrılıqda qarşılaşdıqları problemlər, o cümlədən sivilizasiyalararası toqquşmalardan bəhs edib. Daha sonra Dağlıq Qarabağ məsələsinə toxunaraq, minlərlə insanın öldüyünü, 70-dən artıq dini abidəyə zərər toxunduğunu vurğulayıb. Müfti müharibənin vurduğu zərərlərin sağalmaz olduğunu, bundan insanların daim əziyyət çəkdiklərini nəzərə çatdıraraq, forum çərçivəsində söz, vicdan azadlığı, insanların hisslərinə hörmət, qarşılıqlı hörmət, tolerantlıq və həmrəylik kimi mühüm mövzulara yer ayrılmasını xüsusi qeyd edib.

Tədbirdə Misirin Baş müftisi Şövqi Əllam, Türkiyə Dəyanət İşləri Başqanının köməkçisi Səlim Arqun, Özbəkistan Müsəlmanları İdarəsinin sədri, müfti Usmanxon Alimov, İslam Əməkdaşlıq Təşkilatının İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırmaları Mərkəzinin (IRCICA) Baş direktoru Halit Eren, Qırğızıstan Müsəlmanları İdarəsinin sədri, müfti Maksatbek Toktomuşev və dünyanın müxtəlif ölkələrini təmsil edən alimlər çıxış ediblər.





Beynəlxalq Forumda Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov "Mədəniyyətlərarası dialoq zorakılıq və ekstremizmə qarşı" mövzusunda çıxış edib. AİI rəhbəri qloballaşan dövrdə mədəniyyətlərarası dialoqa ehtiyac olduğunu, zorakı ekstremizmin qarşısının alınmasında bu amilin böyük önəm daşıdığını diqqətə çatdırıb.

Forum dünyanın müxtəlif universitetlər və təşkilatlarından olan alimlərin çıxışları ilə davam edib. Bağlanış nitqi ilə Beynəlxalq Müsəlman Forumunun Katibi, Moskva İslam İnstitutunun rektoru Demir Muxetdinov çıxış edərək, iştirakçılara öz təşəkkürünü bildirib.

Qeyd edək ki, Forum böyük İslam filosofu Əbu-Nəsr əl-Farabinin 1150 illiyinə təsadüf edib.

# “VƏTƏNİMİN ŞAİRLƏRİ-ŞAİRLƏR VƏTƏNİ” MÖVZUSUNDA MÜSABİQƏ




Azərbaycan İlahiyyat İnstitutunda 16 dekabr 2020-ci il tarixdə “Vətənimin şairləri-şairlər Vətəni” mövzusunda müsabiqə keçirilib.

“ZOOM” proqramı vasitəsilə onlayn formada təşkil olunan müsabiqədə Aİİ-nin tələbələri iştirak ediblər.

Aİİ rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov iştirakçıları salamladıqdan sonra, bu səpkili müsabiqələrin tələbələrin elmə, maarifləndirici yarışmalara maraqlarının həmçinin, ümumi biliklərinin və dünyagörüşlərinin artırılmasının, vətənpərvərlik duyğularının yüksəldilməsinin, onların öz biliklərini daha çevik şəkildə ifadə etmək baxımından xüsusi əhəmiyyətə malik olduğunu vurğulayıb, iştirakçılara uğurlar diləyib.

Üç turdan ibarət olan müsabiqədə, ümumilikdə, 45 sual səsləndirilib. Suallar “Azərbaycan ədəbiyyatı antalogiyası (nəzm)” kitabında olan şeir nümunələrini əhatə edib. Antalogiya əvvəlcədən tələbələrə təqdim olunub və suallar sözügedən ədəbiyyatda yer alan şeir nümunələrinə uyğun hazırlanıb.

Müsabiqənin sonunda turlar üzrə qazanılmış ümumi xallar əsasında qaliblər müəyyən edilib, mükafatlandırılıb və onlara diplomlar təqdim olunub.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunda pandemiya dövründə də tələbələrin dünyagörüşlərinin artırılması, mütaliə vərdişlərinin və nitq qabiliyyətlərinin formalaşdırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir.

# "İslam fəlsəfəsi (orta əsrlər – müasir dövr)" kitabı nəşr olunub

Azərbaycan İlahiyyat İnstitutu Dinşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Anar Qafarlı və Aİİ rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinovun həmmmüəllifi olduqları “İslam fəlsəfəsi (orta əsrlər – müasir dövr) adlı kitab 22 dekabr 2020-ci il tarixdə çapdan çıxıb.

On fəsildən ibarət olan “İslam fəlsəfəsi (orta əsrlər – müasir dövr) kitabı İslam fəlsəfəsinin əsas nümayəndələrini və problemlərini ətraflı şəkildə müzakirə obyektinə çevirən bir əsərdir. Kitabda İslam dünyasındakı fəlsəfi düşüncə fəaliyyətinin əsas istiqamətləri, problemləri və nümayəndələri oxucuya təqdim olunur. Əsərdə, həmçinin İslam fəlsəfəsinin mahiyyəti, onun İslam mədəniyyəti və düşüncəsindəki yeri, əhəmiyyəti və bu fəlsəfənin əsasını təşkil edən təməl mənbələr haqqında mühüm məlumatlar əldə etmək mümkündür. Kitab Fəlsəfə təsəvvürü və İslam fəlsəfəsi termini, İslam fəlsəfəsindən əvvəlki dövr: Yunan fəlsəfəsi, İslam dünyasında fəlsəfi məktəblərin təşəkkülü, İslam fəlsəfəsində azərbaycanlı filosofların yeri, XVIII-XX əsrlər modern İslam düşüncəsi və digər bölmələrdən ibarətdir.

Qeyd edək ki, kitabın elmi redaktoru AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru Könül Bünyadzadə, elmi rəyçiləri – AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə və fəlsəfə üzrə fəsəfə doktoru, dosent Zeynəddin Şabanovdur.

Məlumat üçün bildirək ki, Azərbaycan İlahiyyat İnstitutu kitab və dərsliklərin nəşri ilə bağlı bir sıra layihələr həyata




keçirir. “İlahiyyat nəşrləri” adı altında layihəyə İnstitut müəllimlərinin və bu sahədə çalışan mütəxəssislərin kitablarının nəşri daxildir. Eyni zamanda, ali təhsil müəssisəsinin qarşısına qoyduğu məqsədlərdən biri də ilahiyyat sahəsindəki problemləri araşdırmaq, beynəlxalq standartlara cavab verən tədqiqatlar aparmaq və onları nəşr etdirməkdir.

# İlahiyyat İnstitutunda Beynəlxalq Ərəb Dili Gününə həsr edilmiş elmi konfrans



Azərbaycan İlahiyyat İnstitutu Dillər və ictimai fənlər kafedrasının təşkilatçılığı ilə 18 dekabr 2020-ci il tarixdə Beynəlxalq Ərəb Dili Gününə həsr edilmiş "Ərəb dili elmin, dinin və mədəniyyətin dilidir" mövzusunda elmi konfrans keçirilib.

"ZOOM" proqramı vasitəsilə onlayn formada keçirilən konfransda Azərbaycanın, eləcə də müxtəlif ölkələrin ali təhsil müəssisələrinin professor və alimləri iştirak ediblər.



Konfrans AİI-nin II kurs tələbəsi Murad Kərəmovun təqdimatında Qurani-Kərimdən bəzi ayələrin tilavəti ilə başlayıb.



AİI rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov açılış nitqi ilə qonaqları və konfrans iştirakçılarını salamladıqdan sonra, 30 il müddətində işğal altında qalmış torpaqlarımızın Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun qəhrəmanlığı və şücaəti sayəsində azad olunduğu barədə məlumat verib. Beynəlxalq Ərəb Dili Günü münasibətilə iştirakçıları təbrik edən rektor A.Şirinov ərəb dilinin beynəlxalq dil olduğunu, eləcə də elm, din dili hesab edildiyini vurğulayaraq, İslam mədəniyyətində onun əhəmiyyətindən və rolundan bəhs edib.

Konfransın moderatoru – AİI Dillər və ictimai fənlər kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent İlkin Əlimuradov tədbir iştirakçılarını salamladıqdan sonra, ərəb dilinin AİI-də tədrisi haqqında geniş məlumat verib. Daha sonra ali təhsil müəssisəsində tədris olunan ərəb dili dərslikləri, tələbələrin fənni mənimsəmələri üçün təşkil olunan əlavə dərslər və kurslar barədə ətraflı danışıb.





Bəhreyn Krallığı Tətbiqi Elmlər Universiteti Hüquq fakültəsinin müəllimi, professor Murad Abdulla əl-Cənabi söz alaraq, ərəb dili və müsəlman birliyi arasındakı əlaqələrdən bəhs edib.

Misir Ərəb Respublikası Mənufiyyə Universiteti Filologiya fakültəsinin müəllimi, professor Eyd Bəlbə ərəb dilinin ifadə imkanlarından geniş danışıb.

Türkiyə Cümhuriyyəti 29 Mayıs Universiteti

Beynəlxalq Ərəb Dili Mərkəzinin təsisçisi və rəhbəri, fəlsəfə doktoru İbrahim Helalşah ərəb və türk dillərinin bir-biri ilə qarşılıqlı əlaqələrindən danışıb.

Konfransda, həmçinin Oman Sultanlığı Sultan Qabus Universiteti Ərəb dili və ədəbiyyatı kafedrasının müdiri, fəlsəfə doktoru İhsan Sadiq Əlləvati, Malayziya Malaya Universitetinin müəllimi, dosent Əşrəf Məhəmməd Zedan, İraq Respublikası Babil Universiteti İslamşünaslıq fakültəsinin müəllimi, dosent Həsən əl-Məmuri və dosent Mehdi Əbdül-Əmir, Birləşmiş Ərəb Əmirliklərinin dil və düşüncə təlimləri üzrə mütəxəssisi, fəlsəfə doktoru Məhəmməd Eyd Qoran çıxış edərək, ərəb dilinin mövcud vəziyyəti və gələcək perspektivləri barədə söz açıblar.

Avrasiya Universiteti Filologiya fakültəsinin dekanı, dosent Salman Süleymanov çıxışında, ərəb dilinin ərəb mədəniyyətini ən yaxşı ifadə edən dil kimi əhəmiyyətini vurğulayaraq, Azərbaycanda ərəb dilinin ali məktəblərdə tədrisi məsələlərinə toxunub.

Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin müəllimi, dosent Heybət Heybətov ərəb dilinin mədəniyyətlərin elm və dil komponenti kimi gələcəkdə inkişaf perspektivlərindən bəhs edib.

Azərbaycan Milli Elmlər Akademiyası akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu Beynəlxalq əlaqələr şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Gülər Qafqazlı Şərqşünaslıq İnstitutunda tədqiq olunan ərəbdilli mənbələrin öyrənilməsinə dair ətraflı məlumat verib.

Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin "Ərəb dili" fənni üzrə müəllimi Mais Ağaverdiyev ərəb dilinin Azərbaycanda ümumi şəkildə tədqiqi metodlarından danışıb.

İşçi dili ərəb dili olan konfransın sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

# Qış imtahan sessiyasının keçirilmə qaydaları

Azərbaycan İlahiyyat İnstitutunda 24 dekabr 2020-ci il tarixdə keçirilən Elmi Şurada 2020/2021-ci tədris ilinin payız semestri üzrə təhsilalanların biliyinin qiymətləndirilməsi və qış imtahan sessiyasının təşkili barədə məsələlər müzakirə edilib.

Cari ilin payız semestri üzrə təhsilalanların biliyinin qiymətləndirilməsi zamanı onlayn dərslərdə iştirak edən tələbə və magistrantlar tədris prosesində əldə etdikləri nəticələr əsasında qiymətləndiriləcəklər. Dərsə davamiyyətindən asılı olmayaraq, bütün tələbələr imtahanlara buraxılacaqlar.

İmtahanlar onlayn formada, əsasən, şifahi, ehtiyac olduğu təqdirdə isə yazılı formada həyata keçiriləcək.

İmtahan sualları yalnız tədris olunan mövzular əsasında tərtib ediləcək.

Qeyri-ixtisas fənləri ("Mülki müdafiə", "İnformatika və kompüter texnologiyası" və "Multikulturalizmə giriş") üzrə imtahanlar ləğv olunaraq, həmin fənlər üzrə tələbələrin qiymətləndirilməsi təhsil müddətində əldə etdikləri nəticələr (ÜOMG) əsasında hesablanacaq.

İmtahanlara giriş balı bütün tələbələr üçün ən azı, 20 bal müəyyənləşdirilib və imtahanlardan, minimum, 17 bal toplamaq şərti ləğv edilib.

Məlumat üçün bildirək ki, payız semestri ərzində AİI-də tələb olunan sərbəst işlərin sayı 10-dan 3-ə endirilib. Cari semestr müddətində əlavə dərslər keçirilərək, sillabuslara uyğun bütün mövzular tam mənimsənilib və imtahanqabağı məsləhət saatlarının sayı artırılıb.



Cəbhə bölgəsində yaşayan, internet problemi olan, o cümlədən qış imtahan sessiyası zamanı koronavirus infeksiyasına (COVID-19) yoluxmuş tələbələrin imtahan prosesində bu amillərin nəzərə alınması tövsiyə edilib.

Xüsusi karantin rejiminin tələblərini və məsafədən tədrisin reallıqlarını nəzərə alaraq, imtahan sessiyasında tələbələrin bilik və bacarıqlarını göstərmələri üçün bütün lazımi şərait yaradılacaq. İmtahanın nəticəsindən narazı qalan tələbələr 48 saat ərzində Apellyasiya Komissiyasına müraciət edə biləcəklər.

Qeyd edək ki, COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi 2 noyabr 2020-ci il tarixdən etibarən distant formada davam etdirilir.

## "Gözəl Quranoxuma" müsabiqəsi

Azərbaycan İlahiyyat İnstitutunda ənənəvi olaraq hər il keçirilən "Gözəl Quranoxuma" müsabiqəsi onlayn olaraq 25 dekabr 2020-ci il tarixdə baş tutub.

Müsabiqədə Aİİ-nin İlahiyyat fakültəsinin tələbələri iştirak ediblər. İlahiyyat İnstitutunun prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov, İlahiyyat fakültəsinin dekan müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Kövsər Tağıyev və İslamşünaslıq kafedrasının müəllimi Faiq Əhmədzadə münsiflər heyətində təmsil olunublar.

Aİİ rektoru Aqil Şirinov açılış nitqi ilə çıxış edərək, bu gün oxunan Qurani-Kərim ayələrinin Vətən müharibəsində öz canlarını fəda etmiş şəhidlərimizin ruhuna ithaf olunduğunu vurğulayıb. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə isə şəfa diləyib.

Müsabiqənin əhəmiyyətini vurğulayan A.Şirinov qeyd edib ki, Qurani-Kərimi gözəl oxumaqla yanaşı, həm də mənasını anlamaq vacibdir.

Rektor ali təhsil müəssisəsində mütəmadi olaraq istedadlı və bacarıqlı tələbələrin üzə çıxarılması istiqamətində müxtəlif müsabiqələrin davamlı olaraq həyata keçiriləcəyini nəzərə çatdırıb. A.Şirinov müsabiqədə iştirak edən tələbələrə uğurlar arzu edib.

Sonra Aİİ-nin Elm və innovasiyalar üzrə prorektoru, fəlsəfə üzrə fəlsəfə doktoru Mirniyaz Mürsəlov gənclərə tövsiyələrini verib, həmçinin müsabiqənin şərtləri haqqında ətraflı bəhs edib. Belə müsabiqələrin tələbələrə təcrübə qazandırdığını, inkişafına imkan verdiyini bildirib.







Tələbələr tərəfindən maraqla qarşılanan müsabiqədə qaliblər münsiflər heyətinin qiymətləndirməsi əsasında müəyyənləşib. Beləliklə, "Gözəl Quranoxuma" müsabiqəsində ikinci kurs tələbəsi Murad Kərəmov birinci yerə, ikinci kurs tələbəsi Qardaşov Ramazan ikinci yerə, birinci kurs tələbəsi Əliyev Kənan üçüncü yerə layiq görülüblər.

Müsabiqənin qalibləri mükafatlandırılıb və iştirakçılara təşəkkürnamələr təqdim edilib.

## Azərbaycan İlahiyyat İnstitutunun müəllimləri "Multikultural dünyada İslam" mövzusunda X Beynəlxalq Forumda iştirak ediblər



Azərbaycan İlahiyyat İnstitutunun müəllimləri 28 dekabr 2020-ci il tarixdə "Multikultural dünyada İslam" mövzusunda təşkil olunan X Beynəlxalq Forumda iştirak ediblər.

X Beynəlxalq Forum "ZOOM" proqramı üzərindən onlayn formada keçirilib.

İslam Mədəniyyəti, Elm və Təhsilə Dəstək Fondu, Kazan Federal Universiteti, Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu, Tatarıstan Elmlər Akademiyası, Bolqar İslam Akademiyası, Rusiya İslam İnstitutu, Moskva İslam İnstitutu, Rusiya Federasiyasının Müsəlmanları Ruhani İdarəsi və Tatarıstan Respubli-

# İlin yekunlarına həsr olunmuş iclas



Azərbaycan İlahiyyat İnstitutunda 29 dekabr 2020-ci il tarixdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və ilin yekunlarına həsr olunmuş iclas keçirilib.

«ZOOM» proqramı vasitəsilə onlayn keçirilən iclasda İnstitutun rəhbər heyəti, müəllimlər və əməkdaşlar iştirak ediblər.

AİI rektoru Aqil Şirinov tədbir iştirakçılarını salamlayaraq, torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda şəhid olanlara Allahdan rəhmət, yaralı qazilərimizə isə şəfa diləyib. İnstitut rəhbəri vurğulayıb ki, onların qanı və canı bahasına alınmış torpaqlarımızda qalib ölkənin vətəndaşları kimi qürurla gəzirik.

Daha sonra o, 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və qarşıdan gələn yeni təqvim ili münasibətilə səmimi arzularını ifadə edib. Həmrəylik Gününün tarixindən bəhs edən rektor Vətən müharibəsindəki birliyimizin bunun bariz nümunəsi olduğunu vurğulayıb.

A.Şirinov tədbirdə ilin yekunları ilə bağlı məsələlərə də toxunub. Qeyd edib ki, kollektivin birgə əməyi sayəsində onlayn dərslər başlanğıcdan bu günədək uğurla davam edir.

İnstituta builki qəbul planından bəhs edən AİI rəhbəri bildirib ki, İslamşünaslıq ixtisasına minimum keçid balı 281, Dinşünaslıq ixtisasına isə 305 bal təşkil edib. O, eyni zamanda, magistratura və doktorantura səviyyələrində də qəbulun uğurla həyata keçirildiyini nəzərə çatdırıb.

A.Şirinov "Mövlana" və "Erasmus+" proqramları çərçivəsində müqavilələrin bağlandığını, pandemiya dövrü bitdikdən sonra, tələbələrimizin xarici ölkə universitetlərində təhsil ala biləcəklərini vurğulayıb.

Rektor, həmçinin tələbələrin bilik səviyyəsinin və dünyagörüşünün artırılması istiqamətində müxtəlif müsabiqə və seminarların təşkil olunduğunu qeyd edib. Ərəbcə klassik dini mətnləri oxuma və Beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən təşkil olunan ingilis dili kurslarının fəaliyyətindən də söz açıb. Ənənəvi olaraq keçirilən "Gözəl Quranoxuma", Ədəbiyyat yarışmaları haqqında danışıb.

AİI-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Mübariz Camalov söz alaraq, pandemiya dövründə tədrisin təşkili, keyfiyyəti və səmərəliliyi barədə bəhs edib, imtahanların keçirilməsi haqqında məlumat verib.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov İnstitutun "İlahiyyat nəşrləri" adı altında ötən dövr ərzində ali təhsil müəssisəsinin müəllim və əməkdaşlarının əməyi sayəsində dərc olunan kitablardan danışıb. M.Mürsəlov magistratura və doktorantura səviyyələrinə qəbulla bağlı məsələlərə də toxunub.

Daha sonra İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova çıxış edərək, müharibə dövründə keçirilməyən dərslərin əlavə dərslərlə kompensasiya edildiyini, artıq qış imtahan sessiyasına tam hazır olduqlarını nəzərə çatdırıb.

---

kası Müsəlmanları Ruhani İdarəsinin birgə təşkilatçılığı ilə keçirilmiş forumda din və mədəniyyət olaraq İslamın Rusiyada, eləcə də dünyada roluna dair yüzdən çox məruzə dinlənilib.

AİI İlahiyyat fakültəsinin dekanı, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Elnurə Əzizova forumda "Şimali Qafqazda Cədidizm dövründə yazılmış bir Məqtəli-Hüseyn nümunəsi haqqında bəzi qeydlər" mövzusunda məruzə ilə çıxış edib.

Forumda, həmçinin Dinşünaslıq kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Anar Qafarov "Birgəyaşayışın fəlsəfi və dini aspektdən təhlili və Azərbaycan birgəyaşayış nümunəsi kimi" mövzusunda məruzə ilə çıxış edib.

Tədbir dünyanın müxtəlif ali təhsil müəssisələri və təşkilatlarından olan alimlərin çıxışları ilə davam edib.



Məlumat üçün bildirək ki, Beynəlxalq Forumun əsas məqsədi dünyada islami məsələlərlə məşğul olan mütəxəssislərin elmi nailiyyətləri barədə məlumat mübadiləsi aparmaq, bu sahədə fəaliyyət göstərən mütəxəssislər qarşısında duran vəzifələrin əlaqələndirilməsidir.

Azərbaycan İlahiyyat İnstitutu
**Bülleten**
№ 2
iyul-dekabr
2020



















**Təsisçi:**
Azərbaycan
İlahiyyat İnstitutu

**Baş redaktor:**
Aqil Şirinov

**Redaksiya şurası:**
Mirniyaz Mürsəlov
Ayşən Aslanova
Elnarə Ağaoğlu
Rəna Həsrətova

**Məsul redaktor:**
Elnarə Ağaoğlu

**Texniki redaktor:**
Hilal Ağamoğlanov

**Foto:**
Ayaz Mikayıl-zadə

**Ünvan:**
Əhməd Cəmil, 41A

**Əlaqə nömrəsi:**
(+994) 12 510 65 45

Tiraj: 500
**“Nurlar”**
Nəşriyyat-Poliqrafiya
Mərkəzində
çap olunub

ait.edu.az
bulleten@ait.edu.az
ilahiyyatinstitutu
ilahiyyatinstitutu